**AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ**

**F.KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI ELMİ-METODİKA ŞÖBƏSİ**



**Əkrəm Əylislinin anadan olmasının 75 illiyi münasibəti ilə**

# Gəncliyin sevimlisi Əkrəm Əylisli
**(metodiki vəsait)**

**BAKI – 2012**

Tərtib edəni: Ruhiyyə Məmmədli- F.Köçərli adına Respublika Uşaq Kitabxanasının baş kitabxanaçısı

Redaktor: Fizurə Quliyeva- F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru

## Tərtibçidən

Bu vəsaiti Əkrəm Əylislinin 75 illik yubileyi münasibəti ilə sizə təqdim edirik. Vəsait iki hissədən ibarətdir. Vəsaiti sizə təqdim etməkdə əsas məqsədimiz oxucuların Əkrəm Əylisli haqqında olan məlumatlarını daha da artırmaqdır. "Gəncliyin sevimlisi Əkrəm Əylisli" adlanan metodik vəsait "Həyat və yaradıcılığı" və "Keçiriləcək tədbirlər" hissəsindən ibarətdir. Vəsaitin I hissəsində Əkrəm Əylislinin həyat və yaradıcılığından söhbət açılır. Vəsaitin ikinci hissəsində kitabxanalarda keçiriləcək tədbirlərdən bəhs olunur.

## I. Həyat və yaradıcılığı

Bu dünyada insan əməyinin ən qəribəsi və sehrlisi yazıçı əməyidir. Buna görə də, yazıçıya zaman-zaman cürbəcür adlar veriblər: "İnsan qəlbinin mühəndisi", "Cəmiyyətin diaqnoz həkimi", "Dövrün salnaməçisi" və s.

Belə yazıçılardan biri də Əkrəm Əylislidir. Naibov Əkrəm Nəcəf oğlu – nasir, dramaturq, tərcüməçi, 1967-ci ildən Yazıçılar Birliyinin üzvü, Azərbaycan Əməkdar incəsənət xadimi, M.F.Axundov adına ədəbi mükafat laureatıdır. Yazıçı 1937-ci il dekabrın 6-da Ordubad rayonunun Əylis kəndində anadan olmuş, burada orta məktəbi qurtardıqdan sonra ADU-nun filalogiya fakultəsində təhsilini davam etdirmişdir. M.Qorki adına Ədəbiyyat İnstitunun nəsr şöbəsini bitirdikdən sonra Azərnəşrin tərcümə redaksiyasında redaktor, "Gənclik" nəşriyatında baş redaktor, "Mozalan" satirik jurnalında baş redaktor olmuşdur. Sonra bir müddət bütün qüvvəsini yaradıcılığa həsr etmişdir. 1974-1978-ci illərdə Azərbaycan Nazirlər Soveti Dövlət Kinomatoqrafiya Komitəsinin baş redaktoru işləmiş, sonra "Azərbaycan" jurnalının baş redaktoru kimi çalışmışdır. 1987-ci ildə Azərbaycan Yazıçılar İttifaqının katibi seçilmişdir. Əkrəm Əylisli Polşanın Poznan şəhərinin fəxri vətəndaşıdır. O, Belorusiyanın Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı, "Şərəf nişanı" ordeni və medalları ilə təltif olunmuşdu. Əkrəm Əylisli bədii yaradıcılığa şeirlə başlamış, lakin ilk mətbuat hekayəsi "Qəşəm və onun kürəkənidir". Onun əsərləri xarici ölkə xalqlarının dillərinə tərcumə olunmuşdur. Yazıçının özü də bədii tərcümələr etmişdir. V.Şukşinin, Q.Q.Markesin, V.Korolenkonun, İ.Turgenevin əsərlərini dilimizə çevirmişdir. Onun yaradıcılığında dram əsərləri xüsusi yer tutur. "Quşu uçan budaqlar", "Mənim nəğməkar bibim", "Bağdada putyovka var", "Vəzifə", "Anamın pasportu", "Ata mülkü", "Bir cüt bədmüşk ağacı", "Yastı təpə" pyesləri Bakı, Naxçıvan, Gəncə teatrlarında tamaşaya qoyulmuşdur. Ssenariləri əsasında "Gilas ağacı", "Ürək yaman şeydir", "Surəyya" filmləri çəkilmişdir. Yazıçının yaradıcılığında hekayə, povest, roman, hətta şeir də bənzərsizdir, fəthedicidir. Əkrəm Əylisli zəngin ədəbi irsimizdən və Azərbaycan dilinin tükənməz imkanlarından ustalıqla bəhrələnərək, oxucuların rəğbətini qazanmışdır. Əkrəm Əylislinin əsərlərinin başlıca mövzusunu insan və təbiət, milli və ümumbəşəri dəyərlər təşkil edir. Bu əsərlər dərin lirik - psixoloji ovqatı ilə seçilir. Xalq yazıçısı Əkrəm Əylisli elə mahir qələm sahiblərindəndir ki, onun yaradıcılığı zaman, məkan, sərhəd tanımır. Çünki yazıçı müqəddəs ənənələrin davamçısı, yaşadanıdır. Məgər çağdaş dövrümüzdə biz azərbaycanlılar Mirzə Cəlilə, Əbdürrəhim bəy Haqverdiyevə, Üzeyir bəy Hacıbəyova ... müasirimiz kimi baxmırıqmı? Tarixin insanlığın üzünə açdığı hər yeni səhərin aydınlığında Azərbaycan ziyalılarının da öz işıq payı vardır. Bu işıq, ömrünü bizdən ötrü yandıranlardan bizə qalan müqəddəs yadigardır və onu sabahkı nəsillərə təhvil verməyin məsuliyyəti bu gün bütünlüklə bizim Əkrəm Əylisli kimi yazıçıların üzərinə düşür. Burada Lev Tolstoyun sözləri yada düşür: "Bədii əsərlərin təsir qüvvəsi onun mətninin – mövzusunun təzəliyindən-köhnəliyindən asılı deyil, yazıçının həmin mətnə – mövzuya mənəvi münasibətinin nə dərəcədə təzə və özünə məxsus olmağından asılıdır. Pis dildə yaxşı mətləb ifadə etmək,

yalan sözlə doğru fikir söyləmək olmaz. Əgər əsərdə dil qüsurludursa, deməli yazıçının qələmə aldığı mətləb bədii mətləbə çevrilməyib. Əkrəm Əylislinin fikrincə hər hansı bir əsər barədə ən düzgün qənaətə bədiiliyin bütün sirlərini həmin əsərin dilində axtara-axtara gəlib çıxmaq olar.

Yazıçı oxucusuna bildirir ki, normal şəraitdə böyüyən hər bir azərbaycanlı əvvəl ana laylası eşidir. Sonra o özü böyüyüb, ana dilimizdə müxtəlif kitablar oxuyur. Bizim hər birimizin dil tərbiyəmizdə bunların hamısı şərtidir. Bədii yaradıcılıqla məşğul olan hər bir kəsin nitq mədəniyyəti doğma dilin şəhd-şirəsi ilə yoğrulmalıdır. Bu şirə isə xalq yaradıcılığındadır. Nağıldan, bayatıdan, dastandan təcrid olunmuş Azərbaycan dilində uzunömürlü bədii əsər yazmaq olmaz. Yazıçının əsərləri ilə tanış olduqda görürük ki, o, xalqın söz mədəniyyətinə hərtərəfli yiyələnib.

Əkrəm Əylisli oxucusuna çatdırır ki, uşağın "kitaba qurşanan" dövrünə hədsiz həssaslıqla yanaşmaq lazımdır, çünki oxunan kitablar da, bu dövrdə, insanda mənəvi yaddaşın formalaşmasına bilavasitə təsir göstərir. Yazıçı bildirir ki, uşaq kitab oxuya-oxuya təkcə ağıllı, bilikli yox, nadan da ola bilər.

Əkrəm Əylislinin yaradıcılığı ilə tanış olarkən yazıçının bu misraları bir oxucu kimi bizi cəlb edir. "Ağlım kəsəndən iki vətən tanımışam. Birincisi – hamımıza məlum olan – sərhədləri, yeri-yurdu məlum Azərbaycan vətənimizdir. İkincisi – ədəbiyyat: sənət aləmi, ziyalı dünyası. Mən ədəbiyyatı da vətən kimi tanıyıb, vətən kimi sevmişəm. Onu Azərbaycan adlı vətənimizdən heç vaxt ayırmamışam. Və bütün ədəbi fəaliyyətim boyunca həmişə çalışmışam ki, bu vətənin havası təmiz olsun, suyu içməli, çörəyi yeməli olsun, ərazisi bir az da geniş, torpağı daha bərəkətli və daha cazibədar olsun... Bu yolda mən hər cür əzab-əziyyətə həmişə hazır olmuşam. Bu işin xatirinə neçə-neçə dost itirmişəm, düşmən qazanmışam. Ədəbiyyatı vətən kimi tanımaq – Azərbaycanı həqiqətən tanımaq, vətənin fiziki və mənəvi varlığına daha möhkəm tellərlə bağlanmaq deməkdir. Çünki əsl vətənpərvərliyin mayası insanın varlığına məhz mənəvi qaynaqlardan sorulub keçir. Yazıçı öz xatirələrində yazır: "Ayağım, təbii ki, Azərbaycanın hər yerinə dəyməyib. Ancaq, elə bilirəm ki, ürəyim bu yurdun hər yerinə, hər qarışına toxunub. Vətənin hər quruyan ağacı məndən ötrü dərd olub, hər sönən ocağı kimsəsiz, başsız qalan yurd yeri ürəyimi ağrıdıb, sızıldadıb. İndi, nə yaxşı ki, bu ağrı mənim yazılarımdadır: deməli, ağrı qalır. Qalacaq. Və bu ağrı qaldıqca, yaşadıqca – adına Vətən dediyim sehrli ağrılar məmləkətində mən də qalacağam, yaşayacağam..."

## Yubiley tədbirlərinin keçirilməsi

Bu il dekabr ayının 6-da xalqımızın sevimli, xalq yazıçısı, Azərbycan Respublikasının "İstiqlal" və "Şöhrət" ordenləri ilə təltif olunmuş, M.F.Axundov adına Dövlət mükafatı laureatı, nasir, tərcüməçi, publisist, dramaturq, günümüzün mötəbər qələm sahiblərindən, vətəndaş ziyalılarından biri Əkrəm Əylislinin 75 yaşı tamam olur. Bu münasibətlə bir çox təhsil ocaqlarında, kitabxanalarda yubiley tədbirləri keçirilməsi nəzərdə tutulur. Kitabxanada bununla əlaqədar maraqlı tədbirlər keçirmək olar. Bu tədbirlər arasında sərgilər mühüm yer tutur. Sərgidə şairin kitabları, müxtəlif mətbuat səhifələrində onun haqqında nəşr olunmuş məqalələr, nümayiş olunur. Sərgini müxtəlif başlıqlarla adlandıra bilərik. Məsələn: "Dağların gülümsədiyi çağların yazıçısı", "Ədəbiyyat adlı vətəndə əbədiyyətə çevrilən ömür", "Sözün qüdrəti", "Buzbulaqdan başlanan yol", "İstiqlal sənətkarı", "Günümüzün mötəbər qələm sahibi", "Hər kəs bir şam yandırsa, dünyamız nura boyanar", "Ədəbiyyatımızın tənha narı", "İşıqlı, alovlu, ağrılı sənətkar", "Azərbaycan dilinin tükənməz imkanlarından ustalıqla bəhrələnən yazıçı", "Gəncliyin sevimlisi Əkrəm Əylisli" və s. Sərginin təşkili zamanı görkəmli şəxslərin yazıçı haqqında dedikləri sitatlardan istifadə etmək olar.

### Sərgidə veriləcək sitatlar:

1. Əkrəm Əylisli 60-cı illərdə ədəbi mühitimizə yeni nəfəs gətirən sənətkarlardandır.

**Ulu öndər Heydər Əliyev**

2. Azərbaycan uşaq və gənclər ədəbiyyatının tarixində Əkrəm Əylisli ilk dəfə olaraq cəmiyyət həyatında baş verən ən ciddi məsələləri uşaq təsəvvürünün ekranında göstərməyə təşəbbüs göstərmiş və maraqlı əsərlər yaratmışdır.
3. Əkrəm Əylislinin əsərlərinin dili romantik nəsrin ifadə xüsusiyyətlərindən qidalanan aydın və sərrast bir dildir.

**Uşaq yazıçısı Zahid Xəlil**

4. Əkrəm Əylislinin bədii nəsrində ritmin xüsusi rolu və yeri var. O da dilə, sözə münasibətində həssaslığına, sözü seçib yerində işlədə bilmək qabiliyyətinə, lirizminə və ritminə görə nəsrimizin şairi adlandırılmağa tamamilə layiqdir.

**Filalogiya elmləri doktoru,**
**professor Cəlal Abdullayev**

5. Əkrəm Əylislinin nəsri bizim xasiyyətimizə, ruhumuza qarışıb və həmin təmiz, qeyrətli nəfəs zaman-zaman ürəyimizin qapılarını döyür, azanda yolumuza qaytarır. Yazıçının nəsri namuslu bədii ensiklopediyadır.

**Jurnalist Vaqif Bəhmənli**

6. Əkrəm Əylisli Cəlil Məmmədquluzadə ilə başlanan böyük nəsrin istedadlı bir nümayəndəsidir.

**Yazıçı Vaqif Yusifli**

7. Əkrəm Əylislinin yaradıcılığı namuslu sözün bədii xronikasıdır.

**Yazıcı Nadir Cabbarov**

8. Yazıçı öz əsərləri ilə vətənin yaddan çıxmayan gözəl nəğmələrini yaradır və bu nəğmələrin səsi təkcə Azərbaycana deyil, başqa qardaş respublikalara, eləcə də bir çox xarici ölkələrə yayılır.

**Şair Hikmət Ziya**

Tədbirlər arasında sual-cavab gecəsi mühüm yer tutur. Sual-cavab gecəsini iki hissədən ibarət təşkil etmək olar. İlk hissədə kitabxanaçı oxuculara qısaca olaraq Əkrəm Əylislinin həyat və yaradıcılığı haqqında məlumat verir. Daha sonra isə oxuculara yazıçıyla bağlı suallar təqdim olunur.

**Kitabxanaçı:** Əziz oxucularımız, indi isə sizin yazıçı haqqında olan biliklərinizi və öyrəndiklərinizi yoxlamaq məqsədilə sizə suallar təqdim edirik:
Uşaqlar Əkrəm Əylisli hansı hekayələrin müəllifidir?

**Cavab:** "Kiçik qardaş", "Bir gecəlik ay işığı", "May günü", "Ürək yaman şeydir", "Dəyirman əhvalatı", "Büllur külqabının nağılı", "Şanlı məktub", "Təmiz mahnı", "Əncirsiz payız", "Tarçı", "Qara dəniz", "Güllü paltar mövsümü", "Yaz havası" və s.

**Sual:** "Mənim nəğməkar bibim" əsərində əsərin qəhrəmanının adı nədir?

**Cavab:** Əsərin qəhrəmanının adı Sadıqdır.

**Sual**: Əsərdə iştirak edən Sadıqla Azərin fərqi nədədir?

**Cavab**: Bir obraz kimi Sadıq mübariz deyil. O, şərə, ayriliyə, ədalətsizliyə qarşı ürəyində üsyan edir. Epizodik surət kimi verilən Azər ondan daha cəsarətli və üsyankardır.

**Sual**: Əkrəm Əylislinin ilk əsərlərindən uğur qazanmasının sirri nədədir?

**Cavab**: Yazıçıya görə, "həqiqi bədii əsərdə gərək müəllif özünü tam əridib itirə bilsin... həqiqi bədii əsərdə gərək müəllif yazıçı kimi, filosof kimi, müəllim kimi, isti kimi, meh kimi, nəfəs kimi görünsün, duyulsun". Bu xüsusiyyət yazıçının "Gilas ağacı" və "Dağlara çən düşəndə" adlı ilk iki kitabından başlamış sonrakı bütün uğurlu əsərlərində aydın görünür.

**Sual:** Əkrəm Əylislinin bədii nəsrinin mərkəzində hansı kəndin obrazı var?

**Cavab:** Buzbulaq kəndinin obrazı. Buzbulaq Azərbaycanın ucqar dağ kəndinin ümumiləşdirilmiş bədii obrazıdır.

**Sual:** Əkrəm Əylisli “Adamlar və ağaclar” əsəırində nəyi əsas götürüb?

**Cavab:** Yazıçı şifahi xalq ədəbiyyatının nümunələrindən-nağılları, laylaları, dastanları əsas meyar kimi götürür və bildirir ki, xalqın mənəvi saflığı əxlaqı, ağlı, düşüncəsi onun dilində yaşayır.

Sual-cavab gecəsini yazıçının hər hansı bir əsərinə də həsr etmək olar. Nümunə üçün yazıçının “Büllur külqabının nağılı” hekayəsi əsasında hazırladığımız sorğunu təqdim edirik:

**Suallar**:

1. Hekayənin qəhrəmanı kimdir?

**Cavab:** Hekayənin qəhrəmanı Mirzə Manafdır**.**

2. Mirzə Manaf neçə ildir ki doğma yurdundan ayrı düşüb?

**Cavab:** Mirzə Manaf 40 il əvvəl Buzbulaq kəndindən çıxıb.

3. O, harada işləyir?

**Cavab:** Mirzə Manaf şəhərdəki nəşriyyatlardan birində işləyir, pensiyaya çıxmaq vaxtıdır.

4. Bəs Buzbulaq kəndi Mirzə Manaf üçün nə ifadə edir?

**Cavab:** Buzbulaq kəndi əsərin qəhrəmanı üçün çox şey ifadə edir. O, Buzbulağı heç vaxt unuda bilməyib.O, doğma yurdu tez -tez xatırlayır, yuxuda görür.

5. Əsərin adı nəyə görə “Büllur külqabı adlandırılıb?

**Cavab:** Mirzə Manaf şöbə müdirinin stolu üzərindəki büllur külqabını hər dəfə görəndə, doğma kəndindəki bulağın buz bağlamış suyunu, sırasını xatırlayır, onun əl dəyən kimi əriyəcəyindən ehtiyat edir.

6. Əsərin qəhrəmanı özünü xoşbəxt hesab edirmi?

**Cavab**: Xeyr. Mirzə Manaf öz ailəsində belə xoşbəxt deyil. O, ailəsində istədiyi doğmalığı hiss etmir. Beləliklə, mənəvi təklik həm çıxdığı kənddə, həm də yaşadığı şəhərdə Mirzə Manafın ömürlük qaçılmaz qisməti olur.

7. Yazıçı hekayəsi ilə oxucusuna nəyi çatdırmaq istəyir?

**Cavab**: Yazıçı bildirir ki, kökündən ayrı düşənlərin aqibəti acınacaqlı olur. Əkrəm Əylislinin əsərlərində belələrinə cəzanı bir başa Əkrəm Əylisli yox, onların öz ürəkləri verir – öz göynərti və həsrətləri ilə. Onlar öz ürəkləri ilə heç cür bacara bilmirlər və uzun çək-çevirdən, mənəvi əzabdan sonra məğlubiyyətlərini dərk edirlər və boyunlarına alıb belə qərara gəlirlər ki, “Ürək yaman şeydir”.

8. Yazıçı Buzbulaq adı altinda hansı kəndi təsvir edir?

**Cavab**: Əylis kəndini.

Tədbirlərin, ədəbi-bədii gecələrin keçirilməsi yazıçının həyat və yaradıcılığı ilə yaxından tanış olmağa imkan verir. Onlarda yazıçının əsərlərinə maraq oyadır. Ədəbi bədii gecənin ssenarisini təqdim edirik. Ədəbi-bədii gecənin I hissəsi Əkrəm Əylislinin keşməkeşli həyat yoluna həsr olunmalı, II hissəsi isə bədii hissə olmalıdır. Ədəbi-bədii gecədə kitabxanaçı oxuculara Əkrəm Əylislinin yaradıcılığı haqda aşağıdakı kimi məlumat verə bilər.

"Əziz uşaqlar Əkrəm Əylislini böyüklərlə yanaşı məktəblilər də yaxşı tanıyır. Balacalar isə onun haqqında valideynlərindən xoş sözlər eşitmiş, yazıçını dəfələrlə televiziya verlişlərində görmüşlər. Sevimli yazıçı "Dağlara çən düşəndə", "Atalar və atasızlar", "Mənim nəğməkar bibim", "Nar ağacı haqqında nağıl", "Kür qırağının meşələri", "Kölgəsiz ağaclar" və s. adlı povestlər, yüzlərlə hekayə, bir sıra dram əsərlərinin, kino ssenarilərinin müəllifidir. Oxucular tərəfindən böyük rəğbətlə qarşılanmış bu əsərlərdə əsl həyat duyulmaqdadır. Yadda qalan surətlərə çevrilmiş canlı adamlar, insan taleləri, ana torpağın gözəllikləri həmişə nəzəri cəlb edir. Müharibə illərinə həsr olunmuş povestlərdə hər bir evə, ailəyə fəlakət gətirən müharibənin amansızlığı bütün genişliyi ilə göstərilir. O illərdəki yarıac, yarıçılpaq uşaqlar, müdrik qocalar, arxa cəbhədə ərlərini əvəz edən işgüzar, fədakar qadınlar ustalıqla təsvir edilir. Yazıçını oxuculara sevdirən onun özünəməxsusluğu, əsl xalq dilində yazmasıdır. Onu da qeyd edim ki, yazıçı öz əsərlərində uşaq surətlərinə də mühüm yer verir. "Atalar və atasızlar" povestində uşaqların həyatından maraqlı hadisələr vardır. "Mənim nəğməkar bibim" povestinin qəhrəmanı balaca Sadıq isə yazıçının başqa povestlərində də iştirak edir. Əkrəm Əylislinin bir sıra əsərlərindəki Buzbulaq kəndi isə Azərbaycanın əsrarəngiz bir guşəsi kimi doğma vətənin rəmzidir. Onun nəğməkarı, vəsf edəni isə yazıçı özüdür. Demək, yazıçı öz əsərləri ilə vətənin yaddan çıxmayan gözəl nəğmələrini yaradır. Əziz balalar, boy atdıqca siz də bu nəğmələrin dinləyicisi, bu gözəl əsərlərin oxucusu olacaq, əsl vətəndaşlar kimi yetişməkdə onlar sizə böyük kömək edəcəklər."

*Kitabxanaçının çıxışından sonra aparıcılar tədbir iştirakçılarını salamlayırlar.*

I Aparıcı: Əziz oxucularımız, bu gün hamımızın çox sevdiyi, böyük rəğbət bəslədiyimiz, gəncliyin sevimlisi, həyata real təsir göstərən, oxucunu dərindən düşündürən, xəyal, təxəyyül məkanının sərhədlərini genişləndirmək iddiasında olan, cəmiyyət həyatında baş verən ən ciddi məsələləri uşaq təsəvvürünün ekranında göstərməyə təşəbbüs göstərmiş və maraqlı əsərlər yaratmış Əkrəm Əylislinin 75 illik yubileyidir. Bu münasibətlə sizin üçün hazırladığımız ədəbi-bədii gecədə xoş gördük sizləri. Ədəbi bədii gecəni açıq elan edirik.

II Aparıcı: Əkrəm Əylisli "60-cı illərin" ədəbi nəslinin ən istedadlı nümayəndələrindən biridir. O, ilk qələm təcrübələrindən ədəbi ictimaiyyətin diqqətini cəlb etmişdir. Onun "Gilas ağacı" (1961), "Dağlara çən düşəndə" (1963), "Atalar və atasızlar" (1965), "Mənim nəğməkar bibim" (1968) kitabları "yeni nəsrin" uğurlu nümunələri kimi dəyərləndirilmişdir. Əkrəm Əylislinin 70-80-cı illərdə çap etdirdiyi "Kür qırağının meşələri" (1971), "Ürək yaman şeydir" (1973), "Bu kənddən bir qatar keçdi" (1977), "Gilənar çiçəyinə dediklərim" (1983), "Adamlar və ağaclar" (1985), "Seçilmiş əsərləri" (1987) kimi kitabları

da geniş oxucu kütləsi, ədəbi-elmi ictimaiyyət tərəfindən diqqət və maraqla qarşılanmışdır.

I Aparıcı: Yazıçı Əkrəm Əylisliyə görə mövzu qıtlığı deyilən şey yoxdur. Mövzu axtarılmamalıdır. Əsil yazıçını mövzu özü tapır. O, qələmə aldığı mövzunun hər sözünü oxşaya-oxşaya, sevə-sevə yazır. Adama elə gəlir ki, Əkrəm Əylisli üçün yazmaq sevincdir, sevməkdir. Yazıçı sözü seçib yerində işlətmək qabiliyyətinə və ritminə görə nəsrimizin şairidir. "Bütün canlıların həyatı torpaq və günəşlə nə qədər bağlıdırsa şairin, yazıçının varlığı da, görünür bir o qədər ana dilinin gözəgörünməz təbiəti, sehrliliyi ilə bağlıdır". Əkrəm Əylislinin təbiri ilə söyləsək, elə ədəbiyyat da Vətəndir. Demək,Vətənə sədaqət andı içdiyimiz kimi, ədəbiyyata da sədaqət andı içməliyik. Əkrəm Əylislinin insana doğma, yaxın, məhrəm olan nəsrində "amansız gerçəkliklə romantiklik, həyatla yuxu, nağılla həqiqət vəhdətdədir, ayrılmazdır." Elə buna görədir ki, yazıçının qələminin sehrinə düşən heç vaxt oradan çıxa bilmir. Çünki bu dünya yalansız, saf bir dünyadır. Bu dünyada yazıçı ilə oxucunu doğmalıq, səmimiyyət birgə dərd və birgə sevinc birləşdirir.

II Aparıcı: Əkrəm Əylisli nədən yazırsa yazsın, ana dilinin gözəlliyini vurğun-vurğun bizə qaytaran və onun dərin qatlarından bizə təzə ahəng gətirən nəsri öz poetik genişliyi, intonasiya zənginliyi, yüksək bədii sənətkarlığı ilə tanınır, sevilir. Böyük Mirzə Cəlil nəsrinin doğma balası olan bu nəsr öz bədii siqləti, öz poetik dəyəri olan ciddi nəsrdir. Əkrəm Əylislinin rəngləri söz-söz, cümlə-cümlə dəyişir və bu rəngli dünya təbiətin özü qədər təzələnir, təzələndikcə oxucu dünyasına yeni hava, yeni işıq gətirir. Sözlərin də psixologiyası var. Böyük söz duyğusu olan həssas sənətkar doğma kəlmələrimizdə yatan düşüncə qatlarını açır və sözün sehri ilə dünyamızın hər tərəfini aydınlıqla, nurla doldurur.

I Aparıcı: Yazıçı "zülm" adlı qara həqiqətə insan ürəyinin genişliyindən, "işıq" adlı, "ümid" adlı idealdan baxır. Yazıçı əsl insanın sağlam, gözəl, əbədiyyət qədər uzun və doğru amalına inanır. Bu inam insanın məğlub edilməzliyidir. "Tənha narın nağılı"ndan başlayan bu amal "Adamlar və ağaclar" əsərində bütöv bir bədii konsepsiyaya çevrilmişdir. "Kür qırağının meşələri", "Ürək yaman şeydir", "Büllur külqabının nağılı", "Güllü paltar mövsümü", "İşığını əsirgəmə", "Söyüdlərin sarı

işığı", "Gilənar çiçəyinə dediklərim", "Dəhnə" povestlərində, pyeslərində öz təcəssümünü tapmışdır. Ədəbiyyatımızda lirik-psixoloji nəsrin ustalarından biri olan Əkrəm Əylisli irili-xırdalı bütün əsərlərində torpağa bağlılığı hər şeydən uca tutmuşdur. Əkrəm Əylislinin yaradıcılığı bütövlükdə yalana, qeyri-təbiiliyə amansız bir zərbədir. Zaman keçdikcə yazıçının amalı daha aydın hiss olunur. Yazıçının ideyası, yaratdığı xarakterlər aydın görünür, yeni vüsət kəsb edir. Kəndi kəndlikdən, kəndlini kəndlilikdən və ümumən insanı insanlıqdan çıxaran hər nə varsa, hamısına düşmən kəsilən yazıçının xüsusən son hekayə və povestlərində publisist ruh, bədii təhlil, sərt realizm xüsusilə güclüdür. O, uşaqlıq dünyasının fərəhini əks etdirən fəlsəfi axından, duyğulu – emosional üslubdan işgüzar üsluba, real dilə üstünlük verir.

II Aparıcı: Dilin şeriyyatinə yiyələnmiş yazıçı sözlərin musiqisi ilə heç nəyi pərdələmir, həyatımıza, inkişafımıza mane olan qüvvələri amansızcasına ifşa edir. Yazıçı ağaclara, sulara, bərəkətə qənim kəsilən hər nə və hər kim varsa, hamısına düşməndir. "Ağ dərə", "Dəhnə" əsərlərində qoyulan problemlər və onların yüksək bədii həlli Ç.Aytmatovun, B.Rasputinin, Y.Səmədoğlunun, Anarın, Ç.Hüseynovun, Elçinin nəsri ilə səsləşir, müasirlərimizin mürəkkəb daxili dünyası öz bədii-fəlsəfi inikasını tapır. Əkrəm Əylisli yazıçılıqda dilin "hansı qatlarında nələrin gizləndiyini... tapıb aşkara çıxarmaq" işini çox mühüm amil hesab edir. Yazıçı inanır ki, "ədəbiyyatımızın yeni mövzusu – məzmunu da məhz bu hesaba keyfiyyətcə yeni uğurlar qazanacaqdır". Əkrəm Əylisinin öz mövzusu var, o həmişə öz istedadının xislətinə sadiq qalaraq öz mövzusunu işləmiş, bu mövzuda gözəl hekayə və povestlər yazmış, istedadı ilə bağlı prinsiplərə daim sadiq qalmışdır.

I Aparıcı: Yazıçı yaradıcılığının bütün mərhələlərində hekayə janrına müraciət etmiş, bu janrda gözəl nümunələr yaratmışdır. "Nənəmin tütün kisəsi", "Gilas ağacı", "Ot basmış pilləkənlər", "Təmiz mahnı", "Şanlı məktub", "May günü", "Bal ətri", "Ürək yaman şeydir", "Göy sulu dəniz", "Tarçı", "Güllü paltar mövsümü", "Dəyirman əhvalatı", "Bir gecəlik ay işığı", "Büllur külqabının nağılı", "Pasport", "Kölgə" kimi hekayələri Əkrəm Əylislinin istedadının tipini və qələminin gücünü bütün dolğunluğu ilə göstərir. Bu hekayələrdə canlandırılan insan surətləri – Sadıq, Qulu, Əjdər, Qürbət Əzizov,

Mərdan, Vəli, Xaliq, Həbib, Qulam kişi, Ziyad kişi, Kəblə Soltan kişi, Niyaz, Mirzə Manaf kimi canlı obrazlar – bunların hamısı Buzbulaqla bağlıdır. Bu adamlar harada olsalar da, qəlblərində, varlıqlarında Buzbulaqla bağlı bir sevgi, həsrət, ağrı, nisgil gəzdirirlər. Yazıçını bu obrazların təmsil etdikləri insanların taleləri dərindən maraqlandırır.

*("Bu kənddən bir qatar keçdi" pyesindən səhnəcik göstərilir. Səhnəcikdə iki oxucu iştirak edir. Onlardan biri Nərminə, o biri isə Rüstəmdir. Səhnə qatarı əks etdirən dekorasiyalarla bəzədilir.İştirakçılar qatarda oturub söhbət edirlər. )*

**Nərminə:** Kəndə yaxınlaşdıqca, səndə qəribə fikirlər əmələ gəlir. Məncə sən kəndi ideallaşdırırsan.

**Rüstəm**: Çoxlarının nəzərində kənd şəhər üçün ərzaq istehsal eləyən adicə sexdir, fabrikdir, bazardır... Beləleri üçün kənd taxıldır, ətdir, süddür, yundur, pambıqdır – ayrı heç nə deyil. Kənddə yaranan mədəniyyəti, kəndlinin əsrlər boyunca, torpaqla, zəhmətlə, təbiətlə üz-üzə, göz-gözə, nəfəs-nəfəsə yaratdığı mənəvi sərvətləri görə bilməyənlərə mənim qəlbən yazığım gəlir. Belələrinin, ağzının dadını, yediyi çörəyin ləzzətini duya bildiyinə də mən qətiyyən inanmıram... Bu, dünyadan xəbərsiz bədbəxtlər elə hesab eləyirlər ki, mədəniyyət -mənəviyyat deyilən şey, hər nədirsə, o yalnız böyük şəhərlərdə istehsal olunur. Kənd isə bu nadir istehsalın sadəcə istehlakçısıdır... Vicdanıma and olsun, Nərminə, mən bundan dayaz fikir təsəvvür eləmirəm!

**Nərminə**: Hər halda mədəniyyətin əsas magistral xətti böyük şəhərlərdən keçir. Buna şübhən yoxdur ki?

**Rüstəm**: Var. Ona görə ki, mədəniyyət-mənəviyyat deyilən şeydə heç bir magistral xətt ola bilməz! Magistral xətt iqtisadiyyatda ola bilər, siyasətdə ola bilər... Mən kəndi şəhərə qarşı qoymaq istəmirəm – sən məni başa düş! Kənd şəhərdən çox şeylər öyrənib, öyrənir və həmişə öyrənəcək... Amma kəndin də böyük mədəniyyəti var. Kəndli həyatının sınanmış, keşməkeşlərdən çıxmış adətləri, əxlaq normaları var. Və şəhərdə, öz isti otağında rahatca əyləşib, bütün bunlara "köhnəlik", "gerilik" damğası basılıb. Xalqın ən yaxşı adətlərini də pis qələmə verib, kəndli mənəviyyatına qarşı səlib yürüşü başlayanların əksəriyyəti keçmişi, mənəvi yaddaşı olmayan miskin və rəzil adamlar olublar. Əynini son dəbdə bəzəyib, başını son moda ilə qırxdırıb, küçədə hər

hansı kəndliyə rast gələndə qürrələnənlərdən mən, sadəcə olaraq iyrənirəm. Belələrini insan mədəniyyətinin yeni nailiyyəti kimi qəbul eləməyə mənim heç bir əsasım yoxdur...Onlar ən sevimli mahnıların bir kəlmə sözünü bilmirlər. Çünki insan heç bir vaxt bekarçılıqdan oxumayıb. İnsanı oxudan da zəhmət olub. Çünki insan oxuduğu mahnının gücünü də zəhmətdən alıb. Bunsuz ürəkdən oxumaq da, təsəvvür elə ki, mümkün deyil! El mahnılarına fikir verirsən? Məsəl üçün ”Küçələrə su səpmişəm, yar gələndə toz olmasın...” Görürsən, mahnının öz içindəcə necə zərif bir tərbiyə mövzusu var – gözəllik, təmizlik mövzusu...

Nənəm a xallı keçi,
Məməsi ballı keçi.
Uca qaya başında
Tutubdu yallı keçi...

Mən elə-belə, təsadüfən yadıma düşəni deyirəm. Fikir verirsən? Bu balaca şeirdə nə qədər musiqi var! Musiqi bir yana, təbiətə, canlı məxluqa nə boyda hörmət var, məhəbbət var. Belə şeirlərə bizim məktəb dərsliklərində, təəssüf ki, az-az rast gəlmək olur... Şəxsən mənə qalsaydı, aşağı siniflərin “Əlifba”, “Ana dili” dərsliklərini yalnız xalq ədəbiyyatının nümunələrindən tərtib eləyərdim.

Gün düşdü nar üstünə,
Bağçada bar üstünə.
Tənbəl yatan öküzün
Quşlar qonar üstünə.

Tərbiyəvi şeirdi, yoxsa yox? Özünün də, yəqin ki, on əsr ömrü var. Belə şeiri əzbərləmək üçün uşağa düz beş dəqiqə vaxt lazımdır... Amma dərsliklərdəki şeirlərə fikir vermisən? Nə dil var, nə şeiriyyət var. Sözlərin taqqıltısından adamın qulağı batır.

**Nərminə:** Sözlərin taqqıldamağını mən birinci dəfə eşidirəm.

**Rüstəm:** Onda qulaq as:

“Beş” qiymət alır Eldar,
Eldarın on yaşı var.
Evə vaxtında gedir,
Nənəyə kömək edir.

Taqqıldayır, yoxsa taqqıldamır?

**Nərminə:** Bir balaca taqqıldayır, deyəsən. Bu şeir hansı sinfin dərsliyindədir?

**Rüstəm:** Bu “şeiri” mən elə indicə quraşdırdım.

**Nərminə:** Deməli, sən şeir yazmağı da bacarırmışsan? Mənim bundan xəbərim yox idi.

**Rüstəm**: Mən ömrümdə şeir-zad yazmamışam. Amma sənə nə qədər desən, şeir deyə bilərəm. Uşaqlıqda anamdan eşitmişəm.

**Nərminə:** De.

*(Rüstəm şeir deyə-deyə səhnədən çıxırlar)*

I Aparıcı: Əkrəm Əylislinin bədii əsərdə "doğma dilin saflığını, sağlamlığını" qorumağı tələb etməsi, oxucunu "ağrıtmayan, üşütməyən, isitməyən, havasız rəngsiz, cansız söz yığını"na qarşı çıxması təqdir edilməlidir. Yazıçının da dediyi kimi "Kənd haqqında yazılan əsər artıq böyük, bəşəri problemləri əhatə edir. Yəni bu saat dünyanı maraqlandıran ciddi problemlərin axırı gəlib kəndə dirənir". Əkrəm Əylislinin hekayə və povestlərində torpaq oğlunun, kəndlinin torpaqdan ayrı düşməsi və ya ona arxa çevirməsi, istər şəhərdə olsun, istərsə də kənddə, insanın öz kökündən uzaqlaşması şəxsiyyətin dağılmasına, məhv olmasına səbəb kimi mənalandırılır.

II Aparıcı: Əkrəm Əylislinin bütün yazılarının bir sirri də var. Onun hər sözündə, hər cümləsində nəsə bir doğmalıq var. Oxucu bu əsərlərə tez öyrəşir. Onun fikri sənə tanış olmaya bilər, amma doğmadır. Çünki Əkrəm Əylisli iddiasız yazıçıdır. Yazıçının fikrincə dilin də insan kimi savadlısı, savadsızı var. Bədii dilin savadlılığı obrazı canlandırmaq gücü ilə ölçülür. Yazıçı ana dilimizə üstündə çörək kəsdiyi müqəddəs süfrə kimi baxır. Yazıının fikrincə o süfrəni öpüb göz üstünə qoymaq gərəkdir.

I Aparıcı: Əkrəm Əylisli elə mahir qələm sahiblərindəndir ki, onun yaradıcılığı zaman, məkan, sərhəd tanımır. Çünki müqəddəs ənənələrin davamçısı, yaşadanıdır. Cavabdehlik! Yaddaşımız qarşısında, sözümüzün gücü qüdrəti qarışısında, itirə-itirə qazandıqlarımız qarşısında cavabdehlik! Əkrəm Əylislinin yaradıcılığı bu cür cavabdehliyin faktıdır.

II Aparıcı: Yazıçının yaradıcılığı bütövlükdə yalana, qeyri təbiiliyə amansız bir zərbədir. Yazıçının 18 il bundan əvvəl yazdığı "Gəlinin cehiz kitabı" toplusu bu gündə əldən-ələ gəzir. Yazıçı kitabın girişini "Cənnət anaların ayaqları altındadır" kəlməsi ilə başlayıb. Bu yazı Əkrəm Əylislinin analarımıza olan dərin məhəbbətini göstərir. Yazıçının kitabı ülvi və nakam məhəbbətin qüssəli-nisgilli tarixini dörd misrada yaşadan bayatılarımızdan,

min ürəyin niyyətini bir-iki kəlmə ilə ürəklərə yetirən alqışlarımızdan, xəyalı, kamalı dindirib, dilləndirən kəpənək qanadlı qıvraq tapmacalarımızdan seçmələrdən təşkil olunmuşdur. Yazıçının məqsədi Azərbaycan gəlininin böyüdəcəyi övladın məktəbə getməzdən əvvəl ana dilimizin göy qurşağına bənzəyən rəngarəng gözəlliyindən öz payını götürməsidir. Əkrəm Əylisli yaradıcılığı boyu öz istedadını şeir yazmaqla da, oxucusuna göstərmişdir. O, bədii yaradıcılığa şeir yazmaqla başlamışdır. Onun "Şeirim mənim"," Olsa", "Mənim o yerlərə dönməyim gəlir" və s. şeirlərini hər bir Azərbaycan vətəndaşı sevə - sevə oxuyub, əzbərləyirlər.

I Aparıcı: Əkrəm Əylislinin "Mənim o yerlərə dönməyim gəlir" adlı məhşur şeiri məcburi köçkünlərimizin dilinin əzbəridir. Oxucularımızın ifasında "Mənim o yerlərə dönməyim gəlir" şeirindən bir parçanı dinləyək:

I Oxucu:

Mənim o yerlərə dönməyim gəlir.
Allah, yol ver gedim: əhd eləmişəm.
Bu yolu bir dəfə geri dönməyə
Bəlkə milyon dəfə cəhd eləmişəm.

Daha səbr etməyə halım qalmayıb.
Daha yol getməyə yolum qalmayıb.
Bəsdir, çox demişəm: qalım-qalmayim?
Mənim o yerlərə dönməyim gəlir.

II Oxucu:

Daş dibindən baş qaldıran göy otdum,
İşıq gördüm – bir balaca boy atdım.
Elə billəm – gəldim, gəzdim, qayıtdım –
Mənim o yerlərə dönməyim gəlir.

Elə billəm bu da bir pis yuxuydu
Düşmənlərim dostlarımdan çoxuydu.
Qoy desinlər: heç əvvəldən yoxuydu –
Mənim o yerlərə dönməyim gəlir.

III Oxucu:

Bu da bir yol idi tutub gedirdim:
Dünya ilə cəngi – cida edirdim.
Heç bilmədim – nə tapdım, nə itirdim.
Mənim o yerlərə dönməyim gəlir.

Mənim o yerlərə dönməyim gəlir.
Kaş ki, bu gedişlə qalaydım, Allah
Yorğun ürəyimə - bir ağac altda

Oturub – bir layla çalaydım, Allah!..

IV Oxucu: Mənə əl eləyir əli Əylisin,
Yağışı – yağmuru, seli Əylisin.
İliyimdə əsir yeli Əylisin –
Mənim o yerlərə dönməyim gəlir

Allah dinləməni, dinməyim gəlir,
Yandığım bəsimdir, sönməyim gəlir.
Məni qaldırdığın o pilləkənlə
Sənin huzuruna enməyim gəlir.

I Aparıcı: Əziz oxucularımız Əkrəm Əylisli uşaqlar və gənclər üçün daima gözəl əsərlər yaradan istedadlı nasirlərimizdəndir. O, Azərbaycan uşaq və gənclər ədəbiyyatının tarixində ilk dəfə olaraq cəmiyyət həyatında baş verən ən ciddi məsələləri uşaq təsəvvürünün ekranında göstərməyə təşəbbüs göstərmiş və maraqlı əsərlər yaratmışdır. Yazıçının bədii əsərdə “doğma dilin saflığını, sağlamlığını” qorumağı tələb etməsi, oxucunu “ağrıtmayan, üşütməyən, isitməyən, havasız-rəngsiz, cansız söz yığınına qarşı çıxması təqdirə layiqdir. Yazıçını geniş oxucu kütləsinin sevimlisinə çevirən onun əsərlərinin şairanə dili və üslubu ilə yanaşı, zəngin lirizmi və daxili dinamizmidir. Öz səsi, öz nəfəsi ilə “60-cı illər Azərbaycan nəsrinin təşəkkülündə bilavasitə iştirak edən yazıçı Əkrəm Əylislinin əsərləri mənəvi-əxlaqi axtarışlar və lirik-psixoloji təhlillər ədəbiyyatımızın uğurlarının ifadəsi olan bədii söz abidələri sırasındadır. Onun əsərlərində həyat var, insan var, talelər var.

II Aparıcı: Əkrəm Əylislinin “Həyat şirəsi ilə dolu olan dəqiq və realist nəsri” çay kimi sakit, təmkinlə bir əsərdən o birinə axaraq, sujet sahilləri olmayan özünə məxsus bir məkan yaradır.Yazıçının bəzi nəsr əsərlərinin səhnədə ikinci həyat yaşaması da məhz bu dinamizm ilə əlaqədardır. Biz inanırıq ki, hörmətli yazıçımız bu uğurlu yolda inamlı addımlar atacaq, öz pərəstişkarlarını sevindirəcəkdir. Biz buna zərrə qədər də şübhə etmirik. Sözümü Əkrəm müəllimin sözləri ilə bitirmək istəyirəm: “Hər kəsin öz şamını yandırması ilə Azərbaycanımız daha işıqlı bir məmləkətə çevrilsin. Əkrəm müəllimin yazdığı əsərlərini, şeirlərini oxuyan hər bir oxucuda şair, yazıçı olmaq arzusu baş qaldırır. Tədbirimizi oxucularımızın dillərinin əzbəri olan Əkrəm Əylislinin yazdığı “Şeirim mənim” şeiri ilə yekunlaşdırırıq.

*(İki oxucu Əkrəm Əylislinin "Şeirim mənim" şeirini səsləndirir.)*

I oxucu: Əzəl gündən hikmətlisən,
Şeirim mənim,
Şöhrətlisən, hörmətlisən, ləzzətlisən,
İzzətlisən, qüdrətlisən, qiymətlisən,
qeyrətlisən,
Şeirim mənim!
Öz odumsan, ocağımsan,
Doğma ana qucağımsan,
Bayrağımsan, növrağımsan,
Zəbanımsan, dodağımsan,
Sünbülümsən, saçağımsan,
Ağacımsan, budağımsan,
Mən bağbanam, sən bağımsan,
Dünənimsən, bu çağımsan,
Öz əlimdə çırağımsan,
Yad gözünə bıçağımsan –
Şeirim mənim!

II oxucu: Mən şerimi qaldırmışam
Bu dünyanın başı üstdə,
Kimsə ona deyə bilməz
Gözün vardır, qaşın üstdə.
Lazım gəlsə yonduraram
Onu min – min daşın üstdə
Çağıraram insanları bu sərginin
Seyrinə mən.
Əzəl gündən mat qalmışam
Öz şerimin sehrinə mən.
Çağla, sayrış, sən ey mənim
Şeir adlı kəhkəşanım!
Sən olmasan necə qaynar damarımda
Bu türk qanım?
Bu sözümü qoy eşitsin
Zori ağa, Silva xanım –
İldırımdan atəş mənəm
Bir ocaqdır şeirim mənim.
Yaman gündə də, halıma
Yanacaqdır şeirim mənim.

I oxucu: Mən şeirimlə od püskürüb,
Şimşək kimi çaxmalıyam.
Zirvələrin zirvəsinə qalxmalıyam,
çıxmalıyam.

Mən şeirimi güllə kimi, bu yurda kəc
Baxanların gözlərinin bəbəyinə
Çaxmalıyam.
Mən şeirimlə düşmən evi yıxmalıyam,
Mən şeirimi bayraq kimi BMT –nin
Binasının təpəsinə taxmalıyam.

II oxucu: Budur mənim ik məqsədim, son
Məramım,
Şeirim mənim!
Həm məzhəkəm, həm faciəm,
Şeirim mənim!...

I Aparıcı: Biz əminik ki, tarix Əkrəm müəllimin də işıqlı təfəkkürünə, bənzərsiz yaradıcılığına layiqli qiymət verdiyi kimi, onu da daim canlı klassiklərimizin sırasından ayırmayacaq.

II Aparıcı: Burada Əkrəm Əylislinin "Olsa" şeiri yada düşür.
Yetmiş beş yaş nədir ki, vətən yolunda?
Vətənə verərəm yüz yaşım olsa.
Bu ümman könlümün sağ və solunda
Yeddi min, yeddi yüz qardaşım olsa.
O nədir görünən toran içində?
Deyin, gül bitərmi şoran içində?
Dalğaya dönərəm bir an içində,
Sahildə öz qumum, öz daşım olsa.

Dəryaya atmışam tilovumu mən,
Hələ bərk tutmuşam cilovumu mən.
Xalqıma verərəm plovumu mən,
Evimdə yeməyə bozbaşım olsa.
Ellər şair deyib mənim adıma,
Yansam, dünya yanar mənim oduma
Ehey, a Sahibim, yetiş dadıma
Mənim düşmənimlə savaşım olsa.

**S O N**

## İstifadə ədəbiyyat siyahısı:


1. Əylisli Ə. Seçilmiş əsərləri. B.: Şərq-Qərb, 2004.- 368s.
2. Əylisli Ə. Seçilmiş əsərləri. 2 cilddə. II cild.- B: Azərnəşr, 1987.- 416 s.
3. Abdullayev C.M. və b. Müasir Azərbaycan ədəbiyyyatı (Ali məktəblər üçün dərslik). İki cilddə. II cild.- Bakı Universiteti nəşriyyatı, 2007.- 564 s.
4. Azərbaycan sovet yazıçıları (ədəbi sorğu kitabı).- B.: Yazıçı, 1987.- 704s.
5. Əylisli Ə. Bu kənddən bir qatar keçdi. Hekayələr, povestlər, pyeslər.- B.: Azərnəşr, 1977.- 268s.
6. Əylisli Ə. Ədəbiyyat yanğısı (məqalələr,çıxışlar, ədəbi qeydlər).- B: Yazıçı, 1989.- 232 s.
7. Əylisli Ə. Əylisdən Əylisəcən. Olmuşlar və olacaqlar.- B.: Çaşıoğlu, 2000.- 529 s.